***Düz 29 il əvvəl Birinci Qarabağ müharibəsinin xalqımız üçün faciəli səhifələrindən biri yazılıb: ermənilər Füzuli və Cəbrayıl rayonlarını işğal ediblər. AXC–Müsavat hakimiyyəti dövründə nizami ordumuzun olmaması, başıpozuq dəstələrin cövlan etməsi, siyasi kuluarlarda mənsəb və mövqe davaları separatçı erməni silahlılarının Qarabağda daha geniş əl-qol açmasına səbəb olmuşdur. Onlar törətdikləri Xocalı qətliamından, Şuşanın, Laçının, Xocavəndin, Kəlbəcərin işğalından sonra daha geniş əraziləri öz əllərinə keçirməyə şirniklənmişdilər. Gecə-gündüz Qarabağda azərbaycanlılar yaşayan məntəqələrə və ətraf rayonlara hücum edir, od ələyir, zəif silahlanmış özünümüdafiə dəstələrinin üzvlərini və dinc sakinləri qətlə yetirir, əzəli torpaqlarından qovurdular.***




# Bu gün Füzulidə də, Cəbrayılda da Azərbaycan bayrağı dalğalanır

Bu sətirlərin müəllifi 1993-cü ilin aprel ayında Füzuli və Cəbrayıl rayonlarında ezamiyyətdə olduğu zaman müdafiəçilərimizin necə acınacaqlı durumda olduğunu şəxsən görüb. Silah-sursat yox dərəcəsində idi, polis əməkdaşları və müdafiə dəstələri mövqelərimizi canları bahasına birtəhər qoruyurdular. Əhali bədbin və ümidsiz vəziyyətdə idi. Rəsmi Bakı isə haraylara hay vermirdi, siyasi rəhbərlik döyüş bölgələrini taleyin ümidinə buraxmışdı. Dünyada Azərbaycanın haqq işinə kömək edən tərəfdarları da yox idi.

Ov silahları belə müsadirə olunmuş camaat müdafiə üçün əlindən gələni edirdi. Təəssüf ki, bu, azğın düşməni geri oturtmağa kifayət etmirdi. O zaman erməni işğalçıları ilə döyüşlərdə Füzuli rayonu 1100-dən çox şəhid verib, 1450 rayon sakini əlil olub. Rayon mərkəzi və 51 kənd işğal altına düşüb, 55 min nəfərlik əhali öz doğma torpaqlarından qovulub. Cəbrayılda isə ata-baba yurdunu qoruyan 180 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs həlak olub, 90 nəfər isə əsir və itkin düşüb. Bir sıra qiymətli yataqlar, zəngin yeraltı sərvət mənbələri ermənilərin əlinə keçərək vəhşicəsinə talan edilib.

Füzuli və Cəbrayılın müdafiəçiləri doğma torpaqları uğrunda fədakarlıqla vuruşsalar da, günbəgün havadarlarının köməyi ilə güclənən işğalçıların qarşısında davam gətirə bilmədilər. Ondan bir həftə sonra Qubadlı, daha sonra digər ərazilərimiz də işğal olundu. Yalnız 1993-cü ilin iyununda hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev xalqın ümidini sönməyə, inamını heçə dönməyə qoymadı. Dahi rəhbərin müdrik rəhbərliyi ilə ordu quruculuğu gücləndirildi. Azərbaycan Ordusunun həmin ilin dekabr ayında başladığı Horadiz əməliyyatı nəticəsində 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. 1994-cü ilin may ayında ermənilər Qarabağ cəbhəsində atəşkəsə razılıq verməyə məcbur oldular. Sonrakı dövrlərdə Azərbaycanın Silahlı Qüvvələri sürətlə formalaşdı, ölkəmizdə hərbi quruculuq geniş vüsət aldı və ərazilərimizin işğaldan azad olunması üçün etibarlı zəmin yaradıldı. Prezident İlham Əliyev bu məsələləri əsas prioritet elan etdi.

Nəhayət, 2016-cı ilin aprelində Cəbrayılın da üzünə gün doğdu. Həmin vaxt Azərbaycan və Ermənistan silahlı qüvvələrinin qondarma DQR hərbi birləşmələri arasında baş verən döyüşlər qələbəmizlə nəticələndi və Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayılın Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboyun Gülüstan, Tərtərin Qazaxlar kəndi, eləcə də Suqovuşan kəndi istiqamətindəki yollar düşməndən azad edildi.

İşğalçılıq niyyətlərindən əl çəkməyən, tez-tez atəşkəsi pozan ermənilər əsas sarsıdıcı zərbəni 2020-ci ildə, onların növbəti silahlı təxribatına cavab olaraq başlanmış Vətən müharibəsində aldılar. “Zəfər yürüşü” adı ilə başlanan 44 günlük müharibə onların tam məğlubiyyəti ilə sona yetdi və işğalçı dövlətin baş naziri Nikol Paşinyan, əslində, kapitulyasiya aktı olan üçtərəfli 10 noyabr Bəyanatına imza atmağa məcbur oldu.

Əgər dünya gücləri, ermənilərə hərbi, siyasi havadarlıq edən ölkələr vaxtında onların arxasında durub hücumlara qısqırtmasaydılar, əndazəni aşanda “dur!” desəydilər, nə Azərbaycan torpaqları işğal olunar, nə hər iki tərəfdən çoxsaylı itki olar, nə də Ermənistan hazırkı məğmun duruma düşməzdi. Qətiyyətlə demək olar ki, beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin Ermənistan hökumətinin idarəetməsi altında yaradılan qondarma “Dağlıq Qarabağ Respublikası” ilə bağlı münaqişənin siyasi yolla həll olunmamasının, nəhayət, inişilin payızında “dəmir yumruq” sayəsində düşmən ordusunun darmadağın edilməsinin bir səbəbkarı da elə beynəlxalq təşkilatlar, supergüc dövlətlərdir. Burada münaqişə bölgəsinə illər uzunu “turist səfərləri”nə gələn ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini də xüsusi qeyd etmək lazımdır. Bütün bu amillərin nəticəsində Azərbaycanın səbir kasası daşıb və rəşadətli ordumuzun gücü hesabına Qarabağ və Şərqi Zəngəzur düşmən tapdağından xilas edilib.

Zəfər ilinin 4 oktyabrında Cəbrayıl rayonu, 17 oktyabrında isə Füzuli rayonu işğaldan azad olunub. Həmin tarixlərdən etibarən daha məcburi köçkün adı üzərindən götürülən bu rayonların sakinləri artıq ikinci ildir ki, işğal günlərini keçirmir, Qarabağda aparılan genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin başa çatmasını səbirsizliklə gözləyirlər ki, doğma ocaqlarına qayıtsınlar. İyirmi yeddi il ermənilərin “Jrakan Çapel” və “Varanda” adlandıraraq onların “tarixi” əraziləri olduğunun iddia etdikləri Cəbrayıl və Füzulinin öz halal adları özlərinə qayıtdı. İndi isə bu rayonlar doğma övladlarının qayıtmasını gözləyir.

Dünənə qədər yekə-yekə danışaraq, “bizim ordu regionun ən güclü ordusudur”, “Azərbaycanın daha bir neçə rayonunu tutmaq planımız var”, “bu köçəri tayfanı Orta Asiyaya qədər qovacağıq”, “Ordumuz "DQR" xalqını qorumaq gücündə və əzmindədir" və sair kimi zoğallamaları ilə bilərəkdən qıcıq yaradan abırsız ermənilər indi artıq məğmun görkəmə düşüblər. Sentyabrın 27-də sübh tezdən başlanan əkshücumun sədası günorta saatlarında artıq Kremldən, Yelisey sarayından, axşamüstü isə Kapitoli təpəsindən gəldi. Təzədən əl-ayağa düşüb atəşkəsə çağıranları cənab İlham Əliyev özünün siyasi-diplomatik iradəsi ilə susdurdu. Ermənistanın sabun köpüyünə bənzəyən “mif”ləri tez bir zamanda dağıldı. On minə qədər ölüsü, bir o qədər də fərarisi ilə beli sınmış hala gəldi.

İki ilə yaxındır ki, məğlubiyyətindən ibrət dərsi götürməyən mənfur niyyətli qarşı tərəf sülh danışıqlarını uzadır, “status” harayı salır, qalib Azərbaycanın Cənubi Qafqazda diktə etdiyi reallıqlarla barışmaq istəmir. İmdad diləmək ermənilərin tarixi şakəridir. Müharibə dövründə prezidenti Armen Sarkisyan və baş naziri Nikol Paşinyanın yalvarmadıqları dövlət başçısı qalmadı. Putinə yalvardılar, Baydenə, Makrona, Consona, Merkelə yalvardılar, hətta arsız-arsız Ruhaniyə də yalvardılar. Haqq savaşı edən Azərbaycan isə daha onların sözlərinin mötəbərliyinə inanmadı və məqsədinə doğru qətiyyətlə irəlilədi.

Bir neçə günə Cəbrayılı və Füzulini azad edən müzəffər Azərbaycan Ordusu həmin rayon mərkəzlərində üçrəngli bayrağımızı ucaldıb. Azərbaycanın igid oğulları 1993-cü il 23 avqust işğal tarixinin üstündən bir xətt çəkərək, 2020-ci il 4 və 17 oktyabr zəfərlərini yazdı. Ölkə Prezidenti, Ali Baş Komandan həmin gün xalqa müraciət etdi, onu xoş müjdələrlə sevindirdi. Cəbrayılla yanaşı, rayonun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndlərinin, Füzuli şəhəri ilə bərabər, Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərinin işğaldan azad edildiyini açıqladı.

Cənab İlham Əliyev 17 oktyabr tarixli müraciətində alınan ərazilərin



Böyük Qələbə üçün strateji önəmine diqqəti cəlb etdi: “Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər apardı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən, Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik”.

Həmin zəfər qanadlı günlərdə heç bir qüvvənin bizi dayandıra bilməyəcəyini, Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməyəcəyini bəyan edən böyük sərkərdə bütün Qarabağın azadlığına qovuşacağına tükənməz inamını ifadə etdi və buna nail oldu. Füzuli alınandan bir müddət sonra, Milli Dirçəliş Günü ərəfəsində oraya qalibiyyət səfəri edən Prezident İham Əliyev sadə camaatla söhbətlərində vurğulayırdı ki, qalibiyyət əşqi, böyük gələcəyə böyük baxışlar eyni mahiyyətdə, eyni dərəcədə qalır. İşğalçı Ermənistanın koçaryanları, sarkisyanları və paşinyanları isə illər boyunca onların “qalib ədası”ndan əziyyət çəkən yoxsul və cırtdan Ermənistanda vətəndaşların, xalqın yanında indi olduqca üzüqaradırlar.

Artıq iki ilə yaxındır ki, əzəli torpaqlarımızda bərpa-quruculuq prosesləri gedir, şəhərlər, qəsəbələr, kəndlər abadlaşdırılır, dağıdılmış infrastruktur yenidən yaradılır. Ötən il oktyabrın 26-da rekord müddətə tikilmiş Füzuli Beynəlxalq Hava Limanının rəsmi açılışı olub. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və birbaşa təyyarəsi hava limanına eniş edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər.

Hazırda o yerlərdə geniş əmək cəbhəsi mövcuddur. İşğal dövründə Füzuli rayonunun azad olan ərazilərində 12 dəfə olmuş Prezident İlham Əliyev yenə də tez-tez Qarabağa və Şərqi Zəngəzura səfərlər edir və bütün bərpa-quruculuq işlərini şəxsi nəzarətində saxlayır. Füzuli rayonunun Dövlətyarlı kəndində “ağıllı kənd” konsepsiyası əsasında böyük yaşayış məntəqəsi salınır. Beş kəndi birləşdirən layihə bu ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 ev tikiləcək və bu, Füzuli rayonunda yaradılacaq birinci yaşayış məntəqəsi olacaq. Füzuli şəhərinin Baş Planının layihəsi hazırlanıb. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulub. Maksimum qısa müddət ərzində rayon mərkəzi də, kəndləri də çiçəklənəcək. Azad edilmiş ərazilərdə ən müasir texnologiyalar tətbiq ediləcək.

Qarabağda ilk olaraq Füzuli—Şuşa və ya “Zəfər yolu” salınıb. Ötən il noyabrın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 101,5 kilometrlik həmin yolun açılışını ediblər. Yeni magistralın sayəsində Bakıdan Şuşayadək olan məsafə daha da qısalaraq, təqribən 345 kilometr olub.

Dövlətimizin başçısı hələ ötən ilin oktyabrında Cəbrayılda olarkən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub. Görüşdə çıxışı zamanı cənab İlham Əliyev deyib: “Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayıl və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək. Buraya gələn hər bir insan bu dağıntıları görür və erməni vəhşiliyinin, erməni vandallığının şahidi olur”.

Bizim “Böyük Qayıdış”ımızın Cəbrayıldan başlandığını və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuzun da məhz Cəbrayılla bağlı olduğunu söyləyən Prezident İlham Əliyev qeyd edib ki, bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir: “Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, ordumuzun arxasında durdu və ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq”.

Bəli, artıq xalqımız hansısa ərazisinin işğalı gününü qeyd etmir, qalibiyyət günlərini qeyd edir. Bizə Zəfər yaraşır!

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***